# Delimitasiya region üçün xüsusi əhəmiyyət kəsb edir

## Ərazi mübahisələrinin həlli Cənubi Qafqazda daha geniş regional əməkdaşlığa yol açacaq

**"Azərbaycan və Ermənistan arasında sərhədin delimitasiyası prosesinin başlanması həm iki ölkə, həm də Cənubi Qafqaz regionu üçün xüsusi əhəmiyyət daşıyır".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat xatırladıb ki, iki ölkənin baş nazir müavinləri Ermənistan-Azərbaycan sərhədində görüşərək delimitasiya və digər məsələlər üzrə komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər. Bu görüşdən təxminən iki il sonra 2024-cü il aprelin 23-də Azərbaycanla Ermənistan arasında sərhəddə yerdəki geodeziya ölçmələrinə əsaslanaraq koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk dirək basdırılıb. Mayın 15-də iki ölkə arasında sərhəddə Baş nazir müavinləri Şahin Mustafayevin və Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın doqquzuncu görüşü keçirilib. "Görüşün gedişində komissiyalar qəbul edilmiş 2024-cü il 19 aprel tarixli 8-ci görüşün protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrımlı (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş protokoltəsvirini razılaşdırıblar", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Ermənistanın daxilindəki qüvvələr bir həqiqəti dərk etməlidirlər ki, imtina, qarşıdurma, eskalasiya yolu artıq öz gücünü çoxdan itirib: "İndi köçəryanlar, sarkisyanlar azlıqda qalıblar. Onlar elə hesab edirlər ki, hakimiyyəti ələ keçirsələr, köhnə siyasətlərini yenidən həyata keçirmək imkanı qazana biləcəklər. Bu isə qəti şəkildə mümkün deyil. Təkcə ona görə yox ki, Azərbaycan buna heç vaxt imkan verməyəcək, eyni zamanda erməni xalqı da artıq oyanıb. Keçmiş hərbi xuntanın onların başına açdıqları oyunları, hərc-mərclikləri unutmayıblar. Ona görə də onların hakimiyyətə gəlməsinə mümkün qədər imkan verməyəcəklər. Göründüyü kimi, Ermənistanda indiki nəsillərin tələbləri, gözləntiləri başqadır".

K.Bayramov bildirib ki, tanınmış sərhədlər və sabit region hər iki ölkənin ticarət və investisiya imkanlarının artmasına səbəb olacaq: "Transsərhəd əməliyyatlarında daha çox əminlik yaranacaq ki, bu da iqtisadi fəallığın artması ilə nəticələnəcək. Ərazi mübahisələrinin həlli Cənubi Qafqazda daha geniş regional əməkdaşlığa yol açaraq infrastrukturun inkişafı, enerji, turizm və nəqliyyat kimi müxtəlif sektorlarda əməkdaşlıq təşəbbüsləri üçün əlverişli məkan yaradacaq. Aydın və təhlükəsiz sərhədlər regionda nəqliyyat marşrutlarını optimallaşdıraraq Avropa, Asiya və Yaxın Şərqi birləşdirən səmərəli tranzit dəhlizlərini inkişaf etdirəcək. Magistral və dəmir yolları, boru kəmərləri daxil olmaqla sadələşdirilmiş nəqliyyat marşrutları regionu əsas tranzit qovşağına çevirərək əlaqəni və rəqabət qabiliyyətini artıracaq".

Deputat hesab edir ki, bu məsələdə tələsən tərəf Ermənistan olmalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

Azərbaycan. - 2024.- 18 may, № 103.- S.9.